**Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

Ədalət.S.7.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**№ 173 (2021) 28 noyabr 2019-cu il**


# TARİXİMİZDƏ KURQANLARIN YERİ

**Hər bir xalqın özünəməxsus tarixi var və bu tarix də zaman-zaman araşdırılır. Təbii ki, həqiqi tarixi olan və həmin o tarixi də gerçəkliyə, faktlara söykənən xalqlar heç vaxt başqasının tarixinə əl uzatmır, onu mənimsəməyə, özününküləşdirməyə çalışmır. Çox təəssüf ki, bu gün başqasının tarixinin şanlı, maraqlı səhifələrini özününküləşdirməyə və bununla da özünə tarix yaratmağa çalışan bir düşmənlə çəpər qonşusu olmağa məcburuq. Bizim istəyimizdən asılı olmadan tarixi bizi Ermənistanla olmayan bir dövlətin gəlmə nümayəndələrilə qonşu edib. Və böyük dövlətlərin də həm çirkin, həm də böyük siyasətləri erməni kimi hər bir məqama yarayan, hər bir durumda istifadə olunan milləti alətə çeviribdi. Ondan öz məqsədləri üçün istifadə edərək siyasətini gerçəkləşdirib.**



Təbii ki, öncə vurğuladığımız məcburi qonşuluq bizim həyat səviyyəmizə, elə tariximizin özünə də bu və ya digər şəkildə təsirsiz ötüşməyib. Lakin bir gerçək də var ki, biz nəyisə kimdənsə öyrənəndə ona istinad etməyi özümüzə borc bilirik. Amma düşmənlərimiz istinad əvəzinə mənimsəməyə üstünlük verir, özününküləşdirməyi həyat devizinə çevirir. Bu mənada Yuxarı Qarabağın tarixi abidələri özü-özlüyündə mövcud durumu ilə hər şeyi diktə edir. Hələki işğal altında olan bu ərazilərdə düşmən abidələrimizi özününküləşdirməklə məşğuldu. Amma bir gerçək var ki, onu qürurla vurğulamaq lazımdı. Belə ki, Azərbaycanın hər qarış torpağı tarixdi, hər qarış torpağında dünyaya göstəriləcək nələrsə var. Əgər arxeoloqlarımızın araşdırmalarına, tapıntılarına, apardıqları qazıntılara diqqət yetirsək, onda söylədiklərimizin nə qədər həqiqət olduğuna şübhə yeri qalmaz.

Bax, bu mənada götürəndə ölkənin hər bir istiqamətində aparılan arxeoloji qazıntılar tariximizə hədiyyə verməklə yanaşı, bizə kimliyimizi təkrar-təkrar xatırlamaq imkanı da yaradır.

İstər şimal bölgəsində, istər cənubda, istər aranda, istər digər ərazilərimizdə, xüsusilə Naxçıvanda aparılan qazıntılar bizim arxeologiya elmimizin inkişafına, onun dünya tarix elminə hədiyyələr verməsinə şərait yaratmışdı. Bu mənada cənub bölgəsində aparılan qazıntıların önəmi xüsusilə qeyd edilməlidir. Çünki cənub qonşularımızla olan ilişkilər qarşılıqlı maraq doğuran mövzular, axtarışlar tariximizin zənginləşdirilməsi baxımından da önəmlidir.

Bu gün AMEA-nın Tarix İnstitutunun əldə etdiyi uğurlara diqqət yetirəndə onda arxeoloqların da fəaliyyəti diqqət çəkdi. Öyrəndik ki, Tarix İnstitutunun arxeoloji ekspedisiyası bu gün də öz iş planına uyğun olaraq axtarışlarını davam etdirməkdədir. Bu axtarışların uğurlu nəticələri də kifayət qədərdir və həmin nəticələr tarix elmimizə, eləcə də bütövlükdə xalqımızın tarixinə uğurlu əlavələrdir. Məhz bu mənada məsələyə yanaşanda, onda hər bir qarış torpağımızın dəyəri birə min artır.

Yeri gəlmişkən, arxeoloqlarımızın hələ 1989-cu ilin yayında apardıqları təhqiqat işləri zamanı AMEA-nın Tarix İnstitutunun cənub arxeologi ekspedisiyası yeni bir səhifə açmışdı. Belə ki, ekspedisiyaya rəhbərlik etmiş tarix elmləri doktoru, arxeoloq Abuzər Ələkbərovun öz həmkarları ilə birlikdə üzə çıxardıqları kurqan-qəbirlər böyük bir ərazini əhatə edir. Bir az da dəqiq ifadə etsək. Məhz Abuzər Ələkbərovun rəhbərliyi altında arxeoloji ekspedisiyanın Masallı rayonu üzrə işləyən dəstəsi bu rayonun Əmirtürbə kəndi ərazisində uyuyan bir tarixin üstünü açıbdı. Bu tarix isə özü ilə birlikdə xeyli sirlərin ipucunu alimlərimizin ixtiyarına veribdi.

Aparılan qazıntılar zamanı məlum olub ki, Əmirturbə kəndi ərazisində qədim bir qəbirsitanlıq var. Bu qəbiristanlıqda diqqəti çəkən, hətta nadir tapıntılar arxeoloqları özünə cəlb edib. Və aparılan qazıntılar zamanı uzunluğu 2,125 metr olan qəfəsvari hörgünün ətrafında xeyli bəzək əşyaları üzə çıxıbdı. Bu bəzək əşyaları içərisində müxtəlif formalı muncuqlar, tunc bilərziklər, qadın-bəzək əşyaları və sairə olubdu. Təbii ki, bu tapıntı qazıntı işlərinə marağı bir az da artırıb. Və daha geniş əhatədə aparılan qazıntılar zamanı buradan astroloji qalıqlar da ortaya çıxıbdı. Alimlərimizin araşdırması zamanı məlum olub ki, həmin qalıqlar cavan qıza məxsusdur.

Bəli, Əmirtürbə qəbiristanlığında aparılan qazıntılar vaxtı alimləri təəccübləndirən bir məqam da olubdu. Bu da dəfn mərasimi ilə bağlıdır.

Həmin qazıntılarda iştirak etmiş arxeoloqların fikrinə görə, bu gün dəfn mərasimi Azərbaycan ərazisində ilk dəfə diqqəti çəkib. Yəni alimlərimiz uzun illərin axtarışları nəticəsində ilk dəfə olaraq kvadrat şəkilli qəbirlərlə qarşılaşıblar. Həmin qəbirlərin uzunluğu 4, eni isə 1,8 metrdir. Arxeoloqlarımızın hesabatlarından məlum olur ki, Əmirturbə qəbiristanlığında tapılan qəbirlərin döşəməsi ağ rəngli maye ilə suvanıb. Sonra qəbrin içərisində tonqal qalanıb. Bundan sonra dəfn mərasimi icra olunub. Yəni meyit hələ tam sönməmiş odun üstünə yerləşdirilmişdi. Buradakı digər bir maraqlı cəhət də odur ki, həmin qəbrin ayaq tərəfində iki ədəd saxsı qab aşkar olunmuşdur.



Saxsı qabın biri bütövdü, digəri isə sındırılıb. Alimlərimiz düşünür ki, bu, dəfn mərasiminin icrası zamanı bir qayda, bir adət olaraq bəlkə də dəfnin iştirakçıları tərəfindən bəlkə də sındırılıb.

Ehtimal olunur ki, tapılmış sümük qalıqlarının bəzi hissələri yanıbdı. Bu da onu deməyə əsas verir ki, həmin dövrün adətinə görə, dünyasını dəyişənin meyiti dəfn zamanı müqəddəs hesab olunan oda verilirmiş. Hər halda, bunun özü də onu göstərir ki, tariximizin və inancımızın bir ünvanı olan oda sitayiş, atəşpərəstlik barəsində yazılanların, deyilənlərin kökü çox-çox uzaq qərinələrə gedib çıxır.

**Son qazıntılar zamanı Əmirtürbə qəbiristanlığı ərazisindəki kurqan-qəbirlərdən kənd təsərrüfatı alətləri, o cümlədən dəmir baltalar da tapılmışdı. Fikrimizi tamamlayaraq bildirmək istəyirik ki, tapılan maddi-mədəniyyət nümunələri Azərbaycan ərazisində bütün təsərrüfat sahələrinin bu və ya digər formada inkişaf etdirildiyini sübut edir. Yəni tarixin faktı hər şeyi öz yerinə qoyur.**

***ƏBÜLFƏT MƏDƏTOĞLU***


AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ DƏSTƏYİ İLƏ DƏRC OLUNUR